*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 23 sentyabr 2017-ci il № 71 (2188) | Qiyməti 25 qəpik


Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## Ermənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq, təcavüzkarı yenidən cəzalandıracaq

### Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında çıxış edib



- Cənab sədr.

Xanımlar və cənablar,

25 ildən çoxdur ki, Ermənistan Azərbaycanın 20 faiz ərazisini - Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu işğal altında saxlayır.

Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin təxminən 20 faizi işğal altındadır. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan azərbaycanlılara qarşı Ermənistanda, Dağlıq Qarabağda və Azərbaycanın digər 7 rayonunda etnik təmizləmə siyasəti həyata keçirib.

Ermənistan Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib. Xocalı soyqırımı 10-dan artıq ölkə tərəfindən rəsmən tanınıb. 1992-ci il fevralın 26-da Ermənistan Xocalının 613 dinc sakinini, o cümlədən 106 qadın və 63 uşağı qətlə yetirərək, hərbi cinayət törədib. Bəşəriyyətə qarşı bu dəhşətli cinayəti törədən hərbi kriminallardan biri Ermənistanın hazırkı prezidentidir.

Aparıcı beynəlxalq təşkilatlar Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir.

İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti kimi digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələri qəbul etmişlər. Ermənistan bu qərar və qətnamələri icra etmir. Ermənistan 24 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, o, buna görə cəzalandırılmır. Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir. BMT-nin mühüm islahatlarından biri Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizminin yaradılması olmalıdır.

Ermənistan status-kvonun dəyişməz qalması üçün əlindən gələni edir, substantiv danışıqların qarşısını alır. ATƏT-in Minsk Qrupunun həmsədrləri - Fransa, Rusiya və ABŞ dəfələrlə bildirmişlər ki, status-kvo qəbuledilməzdir.

Sual verilir: necə olur ki, despotik və orta əsrlər rejiminin idarə etdiyi bu cür korrupsiyaya uğramış, uğursuz dövlət uzun illər ərzində beynəlxalq hüququ pozmağa, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə və dünyanın aparıcı ölkələrinin bəyanatlarına məhəl qoymamağa müvəffəq olur? Buna cavab isə ikili standartlardır. Təcavüzkara heç bir beynəlxalq təzyiq göstərilmir, Ermənistan diktatorluğuna heç bir beynəlxalq sanksiya tətbiq edilmir. Bu siyasətə son qoyulmalıdır.

Təcavüzkara münasibətdə bu cür siyasət təkcə ədalətsizliyi nümayiş etdirmir, eyni zamanda, Ermənistan diktatorluğunda elə bir illüziya yaradır ki, sanki onlar öz terror siyasətini bundan sonra da davam etdirə bilərlər.

Ötən ilin aprelində Ermənistan şəhər və kəndlərimizə hücum edərək, təmas xəttində növbəti hərbi cinayət törətdi. Bu hücum nəticəsində 6 dinc azərbaycanlı qətlə yetirildi, onların sırasında bir uşaq da var idi. Bundan əlavə, 26 mülki şəxs yaralandı. Yüzlərlə evlərimiz dağıdıldı.

Azərbaycan öz vətəndaşlarını müdafiə etməli oldu. Uğurlu əks-hücum nəticəsində Azərbaycan 3 işğal olunmuş rayonda - Ağdərə, Füzuli və Cəbrayılda bir neçə əraziləri azad etdi və öz bayrağını azad edilmiş ərazilərdə qaldırdı. Ermənistan rəhbərliyi bu dərsi yaddan çıxarmamalıdır. Əks təqdirdə, Ermənistanın növbəti təxribatının nəticələri onlar üçün daha ağrılı olacaq.

Döyüş meydanında məğlub olan Ermənistan şəhərlərimizə və kəndlərimizə hücum çəkmək kimi məkrli siyasətindən istifadə edir. 2017-ci il iyulun 4-də Ermənistan 82 və 120 millimetrlik mina və qumbaraatanlardan istifadə edərək, Füzuli rayonunun Alxanlı kəndinə məqsədli hücum etmiş, 2 dinc sakini - 2 yaşlı Zəhra Quliyevanı və onun nənəsini qətlə yetirmişdir.

2017-ci il avqustun 7-də Ermənistanla sərhəddə yerləşən Tovuz rayonunda 13 yaşlı oğlan erməni əsgərləri tərəfindən yaralanmışdır. Beynəlxalq ictimaiyyət erməni faşizminə və terroruna son qoymalıdır. Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiqdir, lakin, eyni zamanda, Ermənistanın hərbi təxribatı davam edərsə, ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq, öz vətəndaşlarını qoruyacaq və lazım gələrsə, təcavüzkarı 2016-cı ilin aprelində olduğu kimi yenidən cəzalandıracaq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunmalıdır. Ermənistan işğalının yaratdığı böyük çətinliklərə baxmayaraq, Azərbaycan sürətlə və uğurla inkişaf edir.

*Prezident İlham Əliyev çıxışında Azərbaycanın sabit və dinamik ölkə olduğunu, Azərbaycanda 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edildiyini, Azərbaycanda dinlərarası dialoqun gücləndirilməsinə yönəlmiş çox sayda beynəlxalq tədbirə ev sahibliyi etdiyini, onların sırasında BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun, Dünya Dini Liderlər Forumunun, dörd dəfə Mədəniyyətlərarası Dialoqun, beş dəfə Bakı Beynəlxalq Humanitar forumlarının və digər mühüm tədbirlərin keçirildiyini, əsas məqsədi müsəlman aləmi ilə Avropa arasında dialoqu, tərəfdaşlığı və əməkdaşlığı gücləndirmək olan, BMT-nin dəstəklədiyi "Bakı Prosesi"nə start verildiyini və s. qeyd etmiş, Azərbaycanın iqtisadi inkişafı haqqında danışmışdır.*

**AZƏRTAC-ın materialları əsasında**

# Genişmiqyaslı təlimlərin döyüş atışlı mərhələsi icra olunub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən keçirilən genişmiqyaslı təlimlərin döyüş atışlı əsas mərhələsi icra olunub.



Plana müvafiq olaraq bu mərhələdə artilleriya, hava hücumundan müdafiə vasitələri, aviasiya, eləcə də digər birləşmələr yeni silah və texnikanın tətbiqi ilə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

Mürəkkəb dağlıq relyef və radioelektron, həmçinin təlimlərin niyyəti ilə müəyyən edilmiş digər xarakterik xüsusiyyətlər şəraitində keçirilən təlimlərdə qoşunların müasir ümumqoşun əməliyyatlarının keçirilməsinin müxtəlif üsullarının icrası üzrə bacarıq və vərdişləri praktiki olaraq təkmilləşdirilib, qoşunların və idarəetmə sistemlərinin qarşılıqlı əlaqədə effektiv tətbiqi həyata keçirilib.



Müxtəlif poliqonlarda və müasir avadanlıqlarla təchiz edilmiş təlim sahələrində yeni silah sistemlərinin də istifadəsilə döyüş atışları icra olunub, bölmələrin və atəşin manevrləri yerinə yetirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri səfərbərlik və ehtiyat üçün yaradılmış birlik və birləşmələri yoxlayıb

Müdafiə Nazirliyinin rəhbərliyi döyüş əməliyyatları vaxtı qısa zamanda açılaraq tətbiq olunması üçün nəzərdə tutulmuş birlik və birləşmələrin səfərbərlik ehtiyatlarının hazırlıq səviyyəsini yoxlayıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov genişmiqyaslı təlimlərdə iştirak edən qoşunların komplektləşdirilməsi, döyüş uzlaşması, ştat quruluşu və döyüş imkanları barədə müxtəlif səviyyəli komandirlərin məruzələrini dinləyib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ehtimal olunan müharibə dövrü də diqqətə alınmaqla səfərbərlik üçün nəzərdə tutulmuş müxtəlif hərbi hissələrin saxlanclarında qorunan döyüş texnikaları, artilleriya qurğuları, eləcə də eşelonlaşdırılmış ehtiyat sursat, mərmilər və digər maddi-texniki vəsaitlərin anbarlarına baxış keçirilib.



Nazir saxlanmaya qoyulmuş hərbi texnikaların döyüşə hazırlıq səviyyəsini, onların imkanları və effektiv istifadəsini yoxlayıb.

General-polkovnik Zakir Həsənov, həmçinin təlimlərdə iştirak etmək üçün ehtiyatdan çağırılan şəxsi heyətin, texnikaların qəbulu və komplektləşdirilməsi məntəqələrinin fəaliyyəti ilə tanış olub, müvafiq vəzifəli şəxslərin məruzələrini dinləyib və tapşırıqlarını verib.

Müdafiə naziri şəxsi heyətin hazırlığını, təşkilat və idarəetmə bacarığını, eləcə də səfərbərlik üçün nəzərdə tutulmuş və qısa müddətli saxlanmaya qoyulan döyüş texnikası, silah sursatların texniki vəziyyətini yüksək qiymətləndirib.

# Müdafiə naziri cəbhəboyu zonada yerləşən yeni hərbi hissənin açılışını edib

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yerləşən yeni hərbi hissənin açılışını ediblər.

Müdafiə Nazirliyinin rəhbərliyi istifadəyə verilən yeni qərargah, əsgər yataqxanaları, tədris kompleksi, sıra meydanı, tibb məntəqəsi, idman şəhərciyi, eləcə də digər xidməti və inzibati obyektlər ilə tanış olaraq müvafiq tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# GUAM-ABŞ Birgə Bəyannaməsi qəbul edilib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 72-ci sessiyası çərçivəsində keçirilmiş GUAM-ABŞ görüşündə iştirak edib.

Görüşün yekunu olaraq, GUAM-ABŞ Birgə Bəyannaməsi qəbul edilib. Bəyannamədə GUAM-ın ABŞ-la faydalı və nəticəyönümlü əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduğu bildirilir.

Həmçinin regionda sülh, təhlükəsizlik, sabitlik və əməkdaşlığın qorunub-saxlanmasının geniş regional kontekstdə bütün dövlətlər üçün ortaq təhlükəsizlik məkanının yaradılması istiqamətində birgə səylərin mühüm elementi olduğuna dair ortaq mövqe bir daha bəyan edilir.

Bəyannamədə GUAM regionunda münaqişələrin sülh yolu ilə nizamlanması istiqamətində irəliləyişin labüdlüyü vurğulanır və GUAM-a üzv dövlətlərin suverenliyi və ərazi bütövlüyünə sadiqlik bir daha bəyan edilir. Həmçinin GUAM-a üzv dövlətlərin məruz qaldığı gücdən istifadə təhdidinin əsas narahatlıq olaraq qaldığı bildirilir.

Sənəddə BMT Nizamnaməsində əks olunmuş prinsiplər də daxil olmaqla, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə hörmət etməyə dair öhdəliklər və ATƏT-in fundamental sənədlərinə sadiqlik bir daha xatırlanılır.

**AZƏRTAC**

# Müdafiə naziri hərbi təyinatlı obyektlərin açılışında iştirak edib



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov müasir tələblərə cavab verən, yeni avtomobil texnikası, eləcə də avadanlıq və texniki vasitələrlə təchiz olunmuş səhra komanda məntəqəsi parkının açılışında iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri avtomobillərin saxlanc, texniki xidmət, təmir məntəqələri və akkumulyator sexlərində yaradılan şəraitlə tanış olub, müvafiq tapşırıqlarını verib.

# Müdafiə Nazirliyinin kollegiyası:

# Ali Baş Komandanın BMT-də səsləndirdiyi fikirlər ordumuz üçün əmrdir






*Müdafiə Nazirliyinin rəhbər heyəti, birlik, birləşmə komandirləri, onların müavinləri, xüsusi təyinatlı təhsil müəssisələrinin rəisləri, digər məsul zabitlərin iştirakı ilə cəbhə bölgəsində döyüş və mənəvi-psixoloji hazırlıq, eləcə də təlimlərin yekunlarına həsr olunmuş geniş kollegiya iclası keçirilib. Kollegiya iclasında məsul şəxslərin məruzələri dinlənilib.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Silahlı Qüvvələrin 2017-ci qış tədris dövründə xidməti döyüş fəaliyyətinin nəticələri" mövzusunda məruzə ilə çıxış edib. Təlimlərin nəticələrini də təhlil edən Müdafiə naziri bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, müxtəlif poliqonlarda keçirilən təlimlərdə qarşıya qoyulan məqsəd və vəzifələr uğurla yerinə yetirilib.

Şəxsi heyətin döyüş qabiliyyəti və mənəvi-psixoloji hazırlığını xüsusi qeyd edən Müdafiə naziri təlimlərin keçirilməsinin əhəmiyyətini vurğulayaraq, Ali Baş Komandanın Silahlı Qüvvələr qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Baş Assambleyasının 72-ci sessiyasında çıxışı zamanı ötən ilin aprelində Ermənistan silahlı qüvvələrinin təmas xəttində növbəti hərbi cinayəti, ordumuzun bölmələrinin uğurlu əks-hücumu nəticəsində ərazilərimizin bir hissəsinin azad edilməsi barədə səsləndirdiyi fikirləri və toxunduğu bir sıra digər məsələləri iclas iştirakçılarının diqqətinə xüsusi olaraq çatdıran Müdafiə naziri Silahlı Qüvvələrin gündəlik fəaliyyətində qeyd edilən məsələlərin rəhbər tutulmasının vacibliyini vurğulayıb.

General-polkovnik Zakir Həsənov bildirib ki, Ali Baş Komandanın Dağlıq Qarabağ problemi ilə əlaqədar səsləndirdiyi fikirlər ordumuz üçün tapşırıq, bütün şəxsi heyət üçün birbaşa əmrdir. Azərbaycan Silahlı Qüvvələri ən müasir və keyfiyyətli silah və avadanlıqlarla təchiz olunub. Bu, Ali Baş Komandanın orduya göstərdiyi ən ali diqqət və qayğısıdır.

Cəbhəboyu zonada mövcud vəziyyət barədə danışan Müdafiə naziri hər an aktiv döyüşlərə hazır olmaq, düşmənə rahatlıq verməmək, onun fəaliyyətini daim nəzarətdə saxlamaq, istənilən hərəkətlərinin qarşısını qabaqcadan qətiyyətlə almaq və ona maksimum ciddi zərər vurmaq məqsədilə ön xətdə yerləşən birləşmə komandirlərinə konkret tapşırıqlar verib.

Kollegiya iclasının sonunda müzakirə olunan məsələlərlə bağlı qərar qəbul olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Xalqımıza qələbə sevinci yaşadacağıq!"



*Ordu həyatının gənclərə aşıladığı keyfiyyətləri onların öz dilindən öyrənmək üçün döyüş postunda hərbi xidmətdən tərxis olunmağa hazırlaşan əsgərlərlə maraqlanıram. Gizir Amid Seyfullayev bölmənin nümunəvi əsgərlərindən olan Qasım Katibovun bu günsabah ordudan tərxis olunacağını bildirir. "Qasım xidmətə gəldiyi ilk gündən kollektivdə hörmət qazanıb. Verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirib. Onun vətənpərvərliyi, xidmətə bağlılığı digər əsgər yoldaşlarına da nümunədir. O, xidməti dövründə bacarıqlı əsgər kimi formalaşaraq komandir heyətinin rəğbətini qazanıb", - gizir deyir.*

Əsgər haqqında döyüş yoldaşları da fikirlərini bölüşürlər. "Qasımdan daim doğma münasibət görmüşəm. Döyüş növbəsinə də ilk dəfə onunla çıxmışam. Öz təcrübələrini daim mənimlə bölüşərək əsgər olmağın, səngərdə xidmət etməyin şərəfli vəzifə olduğunu bildirib. O, növbə zamanı deyirdi ki, biz Vətən keşikçiləriyik və ayıq-sayıq xidmət etməliyik ki, xalqımız rahat yaşasın. Hər dəfə döyüş növbəsində olanda onun sözlərini xatırlayacam. O, sadiq, etibarlı dostdur. Qasıma gələcək həyatında uğurlar arzulayıram". Bu sözlər əsgər Ziya Əsədova məxsusdur.

Sonra əsgər Taleh Məmmədov Qasım haqqında arzularını bildirir:

- Hər bir gəncin arzusudur ki, Qasım kimi əsgəri borcunu şərəflə yerinə yetirib, ailəsinin yanına başıuca qayıtsın. Bir dost kimi sevinirəm ki, o, hərbi xidmətini nümunəvi əsgər kimi başa vurur. Bütün əsgər yoldaşlarıma da bu məqamı arzu edirəm. İnanıram ki, Qasım hərbi xidmətdə nümunəvi əsgər olduğu kimi, cəmiyyətdə də özünə layiqli yer tutacaq.

Xidmətinin son günlərini yaşayan əsgər Katibovu yaxından tanımaq üçün səngərə üz tuturuq. Budur, əsgər Qasım Katibov döyüş növbəsindədir. Dövlətini, xalqını qoruyur. Körpə Zəhralara mərmi atacaq qədər vəhşiləşən düşmənə nifrəti gözlərindən oxunan əsgəri daha yaxından tanıyıram. Xidmətə Astara rayonundan çağırılıb. Gənc əsgər hazırlığında hədəfləri dəqiq və sərrast vurduğu üçün tuşlayıcı vəzifəsinə təyin olunduğunu bildirən Qasım, komandirlərinə minnətdarlığını bildirərək sözə başlayır:

- Döyüş bacarığına malik, silahdan istifadə etməyi bacaran, vətənpərvər əsgər kimi formalaşmağımda zəhməti olan bütün komandirlərimə "çox sağ olun!" deyirəm. Onların zəhməti sayəsində hərbi bilik və bacarıqlara yiyələndim. Silahın xüsusiyyətlərini yaxşı öyrənib, atıcılıq vərdişləri qazandım. Həm də burada fiziki və mənəvi-psixoloji cəhətdən formalaşdım, həyatın çətinlikləri ilə ayaqlaşmağı öyrəndim. Əsgəri xidmətim məndə Vətənə bağlılıq, vətənpərvərlik hissləri aşılamaqla yanaşı, mətinlik, dözümlülük, qorxmazlıq formalaşdırdı. Qarşıdakı düşmənin vəhşiliyinə yaxşı bələdəm. Gözüm nişangahda, barmağım tətikdə atəş əmrini gözləyirəm. Əmr alan kimi pulemyotumla qarşı tərəfdə daş üstdə daş qoymayacağam. Qəhrəman oğulların canı bahasına bizə əmanət edilən bu torpaqların hər qarışı üçün döyüşməyə hazıram.

Təcrübəli əsgər ordu sıralarında xidmətini davam etdirmək istəyini də bildirdi:

- Tərxis olunduqdan sonra gizir kimi ordu sıralarında xidmətimi davam etdirmək arzusundayam. Lələtəpədə dalğalanan üçrəngli bayrağımız qələbəmizin simvoludur. Hər dəfə qürurla dalğalanan bayrağımıza baxdıqca arzu edirəm ki, əzəli torpaqlarımızın geri qalanını da işğaldan azad edib, xalqımıza qələbə sevincini yaşadaq.

Əsgər Qasım Katibovla tanışlıqdan əmin oluram ki, ordu sıralarında ürəyi Vətən eşqi ilə döyünən gənclər xidmət edir. Onlar hərbi xidmət dövründə milli-mənəvi dəyərlərimizə sədaqətli, gələcəyin nümunəvi vətəndaşları kimi formalaşırlar.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu",
foto
C.CƏFƏROVUNDUR**

# HDQ-də Rusiya Xəzər Flotilyasının hərbi gəmilərinin heyətləri ilə görüş keçirilib



Dostluq səfəri ilə ölkəmizdə olan Rusiya Federasiyası Xəzər Flotilyasının hərbi gəmilərinin heyəti Azərbaycan Hərbi Dəniz Qüvvələrinin nümayəndələri ilə işçi görüşü keçirib.

Hərbi Dəniz Qüvvələrinin qərargahında keçirilən görüşdə Azərbaycan Hərbi Dəniz Qüvvələri ilə Rusiya Federasiyası Xəzər Flotilyası arasında dostluq münasibətləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Pakistan HHQ-nin nümayəndə heyəti Azərbaycanda səfərdədir



*Azərbaycanda rəsmi səfərdə olan Pakistan Hərbi Hava Qüvvələrinin nümayəndə heyəti Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və görkəmli alim, oftalmoloq Zərifə xanım Əliyevanın məzarlarını, eləcə də Şəhidlər xiyabanını ziyarət edib, gül dəstələri qoyaraq ehtiramlarını bildiriblər.*

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Pakistan Hərbi Hava Qüvvələrinin komandanı Aviasiya Marşalı Sohail Amanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüş zamanı iki ölkənin Hərbi Hava Qüvvələri arasında hərbi, hərbi təhsil və hərbi-texniki əməkdaşlığın gələcək perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# XİN: ABŞ Konqresinin üzvlərinin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri məsələsi araşdırılır

*ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvləri Frənk Pallonenin və Tulsi Qebrdin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri məsələsi araşdırılır. Araşdırma yekunlaşdıqdan sonra onlara münasibətdə müvafiq zəruri addımlar atılacaq.*

AZƏRTAC xəbər verir ki, bu sözləri KİV-in sorğusuna cavab olaraq Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

O deyib: "Özlərini ABŞ Konqresinin üzvü kimi təqdim edən bu şəxslər artıq uzun illərdir ABŞ-dakı erməni lobbisi və Ermənistan tərəfindən maliyyələşdirilirlər və tam şəkildə erməni lobbisindən asılı vəziyyətdədirlər.

# Sülh danışıqları baş tutarsa, milyonlarla insanın həyatı xilas olar

Müharibə şəraitində yaşasaq da, ölkəmiz daim sülhün, əmin-amanlığın tərəfdarı olub. Dünyada sülhü təbliğ və dəstəkləmək üçün respublikamızda bir sıra beynəlxalq səviyyəli tədbirlər keçirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq üçün Milli Fəaliyyət Proqramına uyğun olaraq məqsədyönlü işlər aparılır. Milli Fəaliyyət Proqramında əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədi ilə maarifləndirmə tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur.

Bununla əlaqədar Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə avqustun 21-dən sentyabrın 21-dək respublikamızda "Sülh aylığı" keçirilir. Geniş maarifləndirmə işləri aparılır. "Sülh aylığı" çərçivəsində Silahlı Qüvvələrin başqa hərbi hissə və birləşmələrində olduğu kimi, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də maarifləndirici tədbir keçirildi. Hərbi liseyin kitabxanasında baş tutan tədbir kursantların və digər iştirakçılarının böyük marağına səbəb oldu.

Kitabxanada mövzuya uyğun olaraq kitab və jurnallardan ibarət sərgi düzəldilmişdi. Kursantlar kitablarla tanış oldular, maarifləndirici ədəbiyyatla yaxından maraqlandılar. Sonra kitabxananın müdiri Zemfira İsmayılova sülh mövzusundan geniş söhbət açaraq dedi:



- Sülh hamımızın istəyində olduğumuz ən dəyərli bir nemətdir. Bu gün bəşəriyyət sülh şəraitində yaşamağa can atır, insanlar sülh istəyir. Hər birimiz daim açıq səma altında azad, sülh və əmin-amanlıq şəraitində, atalı-analı yaşamaq arzusundadır. Təəssüflər olsun ki, qəflətən başlanan qanlı və amansız müharibələr istəklərimizin həyata keçməyinə imkan vermir. Müharibələr sakini olduğumuz dünyaya ağır zərbələr vurur, yeri-göyü yandırır. Ona görə də yer üzündə sülhün qorunması bəşəriyyətin işıqlı gələcəyinə xidmət edir. Amma, təəssüf ki, heç də həmişə sülhü qorumaq mümkün olmur.

Dünyada sülhü qorumaq, əmin-amanlıq yaratmaq üçün BMT 1981-ci il 21 sentyabr tarixinin Beynəlxalq Sülh Günü kimi qeyd olunması barədə qərar qəbul etmişdir. Bütün sülhsevər dövlətlər BMT-nin bu addımını yüksək qiymətləndirərək öz töhfələrini verməyə başladılar. Dünyada sülhü qorumaq üçün dövlətlər insanlara dinclik və əmin-amanlıq gətirən yer üzündə sülhü qorumaq istiqamətində uğurlu addımlar atdılar. Şüurlu surətdə atılmış bu addımlar tez bir zamanda müsbət nəticələr verdi. Amma, təəssüflər olsun ki, sülh naminə aparılan tədbirlər uğurla nəticələnmir. Bu gün Suriyada, İraqda, eləcə də başqa ölkələrdə müharibə ocaqları alovlanır. Əgər müharibələr zamanı sülh danışıqları baş tutarsa, milyonlarla insanın həyatı xilas olar. Bu, isə çox başlıca bir amildir.

Azərbaycan xalqının Beynəlxalq Sülh Gününü qeyd etməsi isə, təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin davam etməsi ilə müşayiət olunur. Beynəlxalq vasitəçilərin apardıqları sülh danışıqlarının səmərəsiz başa çatması müharibənin başa çatmasına böyük əngəllər yaradır. Doğma ocaqlarından didərgin düşmüş bir milyondan çox insan 25 ildən çoxdur ki, el-obalarının həsrətini çəkə-çəkə yaşayır.

Bildiyiniz kimi, 12 may 1994-cü ildən münaqişə tərəfləri arasında atəşkəs rejimi elan olunub. Amma Ermənistan daim atəşkəs rejimini pozaraq təsərrüfat işləri ilə məşğul olan dinc insanları hədəf seçirlər. Ermənistan nəinki atəşkəsə əməl etmir, üstəlik, BMT Təhlükəsizlik Şurasının müxtəlif illərdə qəbul etdiyi 4 qətnamənin tələblərini hələ də kobud şəkildə pozur. Bu qətnamələrin qəbul edildiyi vaxtdan 20 ildən çox vaxt keçib. Amma Qarabağ müharibəsinin sülh yolu ilə həll olunması istiqamətində uğurlu bir addım atılmayıb. Hər an müharibə başlaya bilər. Aprel döyüşləri bir daha göstərdi ki, atəşkəs çox kövrəkdir. Təbiidir ki, bütün bunlar beynəlxalq təşkilatların sülhün və təhlükəsizliyin bərpası istiqamətində apardığı işlərə inamı azaldır.

Dünyanın uzaqgörən, müdrik insanları silahla deyil, dillə danışmağa, sülhə üstünlük veriblər. İnanırıq ki, gec-tez yer üzündə sülh qalib gələcək. Müharibələrə son qoyulacaq, torpaqlar qan çanağında boğulmayacaq, günahsız insanlar silahların hədəflərinə tuş gəlməyəcək, dünyamızda atəş səsləri eşidilməyəcək. Bütün insanlar əmin-amanlıqda yaşayacaqlar. Səmamızda daim sülhün carçıları olan göyərçinlər qanad çalacaq.

Sonra mayor Natiq Rəhimov çıxış edərək sülhün tarixi əhəmiyyətindən ətraflı danışdı. Kursantları maraqlandıran suallara cavab verdi.

Kursantlardan Heybullah Tohumov, Tunar Mayılzadə, Namiq Quliyev, Rəsul Əlili və başqaları ilə görüşüb söhbət etdim. Onlar beynəlxalq mövzuda belə tədbirlərin keçirilməsinin böyük əhəmiyyətindən söz açdılar.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxcıvanski adına Hərbi Lisey**

*Döyüş hazırlığı*

# Artilleriya bölmələri hazırlıqlarını artırırlar

*Müharibə şəraitində yaşayan və erməni işğalına məruz qalan bir ölkənin ordusu ərazi bütövlüyünü bərpa etmək üçün daim döyüşə hazır olmalıdır. Bu səbəbdən də ordumuzun bütün qoşun növlərində tədris dövrünə uyğun bölmələr arasında müsabiqələr keçirilir, ən yüksək nəticələr əldə edən bölmələr komandanlıq tərəfindən qiymətləndirilir. Artilleriya qoşunları arasında bu cür müsabiqələr və heyətlər arasında birincilik uğrunda mübarizələr diqqəti cəlb edir.*



Bu günlərdə artilleriya bölməsində özüyeriyən artilleriya qurğusunun, tırtıllı döyüş texnikalarının ekstremal şəraitdə idarə edilməsinin praktiki məşğələsi keçirildi. Sürücü-mexaniklərin cəlb olunduğu dərsə keçməzdən əvvəl polkovnik-leytenant Gülməmməd Rzayev məşğələyə cəlb olunan hərbi qulluqçulara döyüş zamanı müxtəlif ərazilərdə; meşə, dağlıq, düzəngah və başqa mürəkkəb relyefə malik yerlərdə döyüş maşınlarının idarə edilməsinin xüsusiyyətlərindən danışdı. Əlavə etdi ki, düşməni məhv etmək üçün təkcə tuşlayıcının bacarığı və peşəkarlığı yetərli deyil, özüyeriyən döyüş maşınlarının sürücü-mexaniklərinin fəaliyyəti də önəmlidir. Müntəzəm keçirilən sürücülük məşqləri müsbət nəticələr verir. Məşğələ rəhbəri baş leytenant Asəf Süleymanov həm də bacarıqlı batareya komandiridir. Əvvəlki tədris ilində onun komandiri olduğu bölmə döyüş və ictimai-siyasi hazırlığa görə fərqlənib. Zabit indi də tabeliyində olan sürücü-mexaniklərin bilik və bacarıqlarını artırmaq üçün səylə çalışır. Məşğələ rəhbəri deyir:

- Hazırda sürücü-mexaniklərlə keçirilən çalışma iki mərhələdən ibarətdir. Həm gecə, həm də gündüz vaxtı keçirilən sürücülük məşqləri bizə imkan verir ki, döyüşü istənilən hava şəraitində apara bilək. Gündüz, yaxud gecə vaxtından asılı olmayaraq 4-6 km məsafə qət olunması tələb olunur. Sürücü-mexaniklər çalışmanı qoşunların yerləşməsi üçün xarakterik olan manevələrdən ibarət olan ərazilərdə yerinə yetirir. Onlar həm də 4-5 oriyentirə görə hərəkətini təyin etməlidir. Oriyentirlər elə yerdən seçilir ki, onları maşından yaxşı görmək mümkün olsun. Gecələr işıqlandırıcı nişanlarla qeyd olunur. Eyni xətt üzrə hərəkət etmək üçün heyətlərə müxtəlif ardıcıllıqlarla oriyentirləri müəyyən etmək tapşırığı da verilir.

...Tırtıllı zirehli texnikalar müəyyən edilmiş vaxtda saxlanc yeri tərk edir. Döyüş maşınları təyin edilmiş ara məsafələri saxlamaqla təlim-toplanış yerinə istiqamət alır. Çox keçmədi ki, döyüş texnikaları meşə zolağının kənarında əvvəlcədən müəyyən edilmiş yerə çatır. İxtisas üzrə yetərincə biliyi və təcrübəsi olan gizir Araz Şirinov və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Bəhram Allahyarov sürücü-mexaniklərə lazımi tövsiyələri verirlər. Sürücü-mexaniklər döyüş maşınının heyəti texnikalarda öz yerlərini tutmaq üçün komanda alırlar. Onlar xüsusi baş geyimlərini başına keçirib bir-birləri ilə rabitə əlaqəsi qururlar. Çox keçmir ki, zirehli döyüş maşınları bir-bir olduqları yerdən ağır-ağır tərpənib əvvəlcədən müəyyən edilmiş manevələri aşmaq üçün hərəkəti davam etdirirlər.

Sürücü-mexaniklərdən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçulardan Pərviz Aslanov, Ceyhun Ramizoğlu, Üzeyir Məmmədli, Bəxtiyar Hüseynov və Rahib Məmmədov fərqlənirlər.

**Polkovnik-leytenant Bəxtiyar ƏLİYEV, "N" hərbi hissəsi**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**21 sentyabr 2017-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan da (1 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 120 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Fərəhli, Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

**22 sentyabr 2017-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 128 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Muncuqlu, Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Yarımca, Ağdam rayonunun Cəvahirli, Abdinli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Acarlı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları sırasındadır



*Azərbaycan Ordusunun maddi-texniki bazası, müasir silahlarla təminatı, hərbi qulluqçuların Vətən sevgisi, döyüş ruhu və yüksək nizam-intizamı onu deməyə imkan verir ki, Silahlı Qüvvələrimiz işğal altında olan torpaqlarımızı azad etməyə hazırdır.*

AZƏRTAC xəbər verir ki, bu fikir Beyləqan rayonunda yerləşən "N" hərbi hissəsinin yaranmasının ildönümü münasibətilə keçirilən tədbirdə səsləndirilib.

İştirakçılar əvvəlcə hərbi hissənin texnika, silah və digər vasitələri ilə tanış olublar. Sonra desantatma və manqanın düşmən arxasında fəaliyyəti, basqı və pusqu, şəxsi heyətin hərbi tətbiqi və fiziki hazırlığı nümayiş olunub. Xüsusi təyinatlı dəstənin nümunəvi çıxışı alqışlarla qarşılanıb.

Tədbir ulu öndər Heydər Əliyevin və respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan Vətən övladlarının bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Azərbaycanın Dövlət himni oxunub.

Tədbirdə çıxış edən general-mayor Mayis Bərxudarov və Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov şəxsi heyəti hərbi hissənin yaranmasının ildönümü münasibətilə təbrik edib, onlara xidmətlərində uğurlar və qələbə sevinci arzulayıb.

Bildirilib ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində açdığı yol Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Silahlı Qüvvələrimiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü ordularından birinə çevrilib. Ötən ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünü və işğal altındakı torpaqlarımızı qısa müddətdə azad etməyə qadir olduğunu bir daha göstərdi.



Çıxışlarda hərbi hissənin yarandığı qısa müddətdə əldə etdiyi uğurlar yüksək qiymətləndirilib. Vurğulanıb ki, Azərbaycan Ordusu nəyin bahasına olursa-olsun, respublikamızın ərazi bütövlüyünü təmin edəcək.

Sonra xidmətdə fərqlənən hərbi qulluqçulara medal, fəxri fərman və hədiyyələr təqdim olunub. Tədbir çay süfrəsi arxasında davam edib.

AZƏRBAYCAN ORDUSU

# Pakistan HHQ-nin nümayəndə heyəti Silahlı Qüvvələrin Hərbi Akademiyasını ziyarət edib



*Pakistan İslam Respublikasının Hərbi Hava Qüvvələri komandanı aviasiya marşalı Sohail Amanın rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 21-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasını ziyarət edib.*

Hərbi Akademiyanın rəhbərliyi ilə keçirilən görüş zamanı ölkələrimiz arasında hərbi təhsil sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Aviasiya marşalı Sohail Aman "Assimetrik hərbi əməliyyatlar zamanı HHQ-nin tətbiqi" mövzusunda akademiya dinləyiciləri qarşısında mühazirə ilə çıxış edib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Gənc zabitlərimiz

# "Torpaqlarımızı işğaldan azad edəcəyik"

*Azərbaycan illərlə arzusunda olduğu müstəqilliyə qovuşduqdan sonra sağlam cəmiyyətə, böyük nüfuza və güclü orduya malik bir dövlətə çevrilib. Ancaq müstəqilliyimiz asan başa gəlməyib, xalqımızın minlərlə övladının qanı bahasına formalaşıb. Hər zaman Azərbaycan Ordusunun əsgər və zabit heyəti yetərincə silahlandırılmış düşmənə qarşı lokal döyüşlərdən tutmuş irimiqyaslı hərbi əməliyyatlaradək hünər və cəsarət nümayiş etdirib. Qazanılan qələbələr, əldə olunan uğurlar, şəxsi heyətin formalaşması prosesi bilikli kadrlarımızın, zabitlərimizin hesabına mümkün olub.*

Belə zabitlərdən biri də Şirvan şəhərində anadan olan, aprel döyüşlərinin iştirakçısı bölük komandiri baş leytenant Samir Mehdiyevdir. Söhbət zamanı zabit bildirdi ki, harada xidmət etməyinin onun üçün heç bir fərqi yoxdur. Ancaq zabit hesab edir ki, qarşıda düşmən olduğuna görə ön xətdə tələblər və məsuliyyət bir az fərqlidir: "Harada xidmət etməyindən asılı olmayaraq ilk növbədə zabit xalqını, millətini, torpağını sevməyi bacarmalıdı. Yalnız bu şərtlə həmin zabit üzərinə düşən şərəfli işin öhdəsindən layiqincə gələcək. Zabit hər an döyüşə hazır olmalı, şəxsi heyətin hazırlığına görə də məsuliyyət daşımalıdı. Bunun üçün şəxsi heyətin döyüş hazırlığına ciddi yanaşır, hər bir əsgərə xüsusi mənəvi dəyərlərimizi aşılayıram. Əsgərlər bilməlidir ki, torpaqlarımızın işğaldan azad olunması kimi məsuliyyətli vəzifə onların üzərinə düşür".



Zabit Samir Mehdiyev hesab edir ki, işğal olunan 20 faiz torpaqlarımızı azad etmək üçün əsgərlərimizə Vətən sevgisini, qəhrəmanlığı aşılamaqla yanaşı, müəllimlərimizdən mənimsədiklərimizi, öyrəndiklərimizi də onlara öyrətməliyik. Zabit hər zaman əsgəri üçün ümid mənbəyi olmalıdır. Zabitin işi, sadəcə, əsgərlərin beyinlərini hərbi biliklə doldurmaqla bitmir. Onların mənəvi aləmini dərindən kəşf etməli, dilini, dinini, Vətənini, dövlətini sevməyin sirlərini hər kəsə aşılamalıdır.

Baş leytenant Samir Mehdiyev ümummilli lider Heydər Əliyevin "müəllim yeganə şəxsiyyətdir ki, cəmiyyət özünün gələcəyini - uşaqların tərbiyəsini yalnız ona etibar edir" fikrini xatırladaraq bildirdi ki, hərbçi həm də müəllim olmağı bacarmalıdı. "Çünki işğal olunan torpaqlarımızın azad olunması naminə istənilən zəhmətə qatlaşmağa hazır olmalıyıq. Azərbaycan zabiti olaraq haqqım çatır deyəm ki, torpaqlarımızı azad etmək üçün nəinki istənilən zəhmətə qatlaşmağa, canımızı da Vətənə fəda etməyə hazırıq. Torpaqlarımızı işğaldan azad edəcəyik!"

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

## Nümunəvi xidmət

# "İstənilən tapşırığı yerinə yetirməyə hazırıq"

*Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, nə qədər ki, bu ərazi işğaldadır, biz rahatlıq tapa bilmərik. Vətənini, millətini, torpağını sevən hər bir azərbaycanlının köksündə Qarabağ adlı bir dərd döyünür. Onunla təsəlli tapırıq ki, bu yurdu işğaldan azad etməyə hazır olan oğulların sayı yüzlərlə, minlərlə deyil, on minlərlədir.*

Belə oğullardan biri də Lerikdə müəllim ailəsində dünyaya göz açan gizir Amid Seyfullayevdir. Hələ uşaq yaşlarında müharibənin nə demək olduğunu dərk edən, ağrılı-acılı, qanlı-qadalı müharibə dövrünün canlı şahidi olan balaca Amid bir gün böyüyüb düşməndən qisas alacağına and içir. Amidlə söhbət edərkən məktəb illərindən yadigar qalan bir xatirəsini bizimlə bölüşür:

- 5-ci sinifdə oxuyurdum. Azərbaycan dili müəllimi inşa yazmağı tapşırmışdı. Mövzu isə Vətən sevgisi idi. Rəsm çəkmək qabiliyyətim var deyə dərslərdə fərqli şəkillər çəkirdim. Sonda müəllim inşaları yoxlamaq üçün dəftərlərimizi yığdı. Mənim bayraq, gerb və əsgər şəkilləri çəkdiyimi görəndə əsəbləşəcəyini düşündüm. Lakin müəllim mənə yaxınlaşıb Vətən sevgisini belə gözəl təsəvvür etdiyim üçün saçlarıma sığal çəkdi və mənə əla qiymət yazdı. Vətən sevgisi iki kəlmədən ibarət adi sözlər deyil, bu anaya olan məhəbbətimiz, doğulub boya-başa çatdığımız yurda bir övlad sevgimizdi.



Amid orta təhsilini başa vurduqdan sonra həqiqi hərbi xidmətə çağırılır. 2006-2007-ci illərdə Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrdən birində xidmətə başlayır. Ön xətdə xidmət edən Amid nizam-intizamı, döyüş vərdişlərinə yiyələnməsi ilə komandirlərinin rəğbətini qazanır. Çünki o da bilirdi ki, sülh danışıqları baş tutmasa, torpaqlarımızı döyüşlə işğaldan azad etməliyik. Buna görə digər əsgərlər kimi döyüş texnikalarının, atıcı silahların sirlərinə mükəmməl yiyələndi.

Nəhayət, əsgər Amid Seyfullayev ordu sıralarından tərxis olunur. Mülki həyatda rahatlıq tapa bilməyən gənc atası Fəyyaz kişiyə, anası Təmiləxanıma gizir kimi yenidən hərbi xidmətə qayıtmaq istəyini bildirir. Vətənpərvər ruhda böyüyən Amidin bir hərbçi kimi torpaqlarımızın azadlığı uğrunda mübarizəyə səmərə verə biləcəyinə doğmaları da inanır və ona xeyir-dua verirlər.

Hərbi xidmət ötən illərdə ona bir həqiqəti aşılayıb: ömür Vətən üçün, millət üçün, dövlətçilik üçün yaşananda mənalı olur. O da mənalı ömür yaşayanların sırasına daxil olur.

Bu gün ön xətdə xidmət etməyin qürurunu sözlə ifadə edilməyəcəyini deyən təcrübəli gizir, torpaqlarımız uğrunda son nəfəsədək vuruşmağa hazır olduğunu deyir. Amid deyir ki, döyüş əmri verilərsə, tabeliyində olan əsgərlərlə birlikdə istənilən tapşırığı yerinə yetirməyə hazırdır.

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Silahlı Qüvvələrin Hərbi Akademiyasında elmi-praktik konfrans keçirilib



Ordu quruculuğunun elmi əsaslarla, elmi-texniki yeniliklərin tətbiqi ilə inkişaf etdirilməsi yollarının araşdırılması məqsədilə Silahlı Qüvvələrin Hərbi Akademiyasında "Elm və tədrisin vəhdəti: nəzəriyyədən praktikaya" mövzusunda elmi-praktik konfrans keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Müdafiə Nazirliyinin müvafiq idarələrinin və xüsusi təyinatlı təhsil müəssisələrinin nümayəndələri iştirak edib.

Çıxış edənlər hərb elminin inkişafı, hərbi-texniki nailiyyətlərin tətbiqi və görülməsi zəruri olan tədbirlərdən danışıblar.

Hərbi elmi nailiyyətlərin praktikaya tətbiqi istiqamətində mövcud problemlərin sistemləşdirilməsi, aradan qaldırılması ilə bağlı təşkil edilən konfransın xüsusi təyinatlı təhsil müəssisələrində davam etdiriləcəyi bildirilib.

# Azərbaycan dənizçiləri ilə Rusiya Xəzər Flotiliyasının hərbi gəmilərinin heyətləri arasında mini-futbol görüşü təşkil olunub

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dostluq səfəri ilə ölkəmizdə olan Rusiya Federasiyası Xəzər Flotiliyasının hərbi gəmilərinin heyəti Azərbaycan Hərbi Dəniz Qüvvələrinin gəmi heyəti ilə mini-futbol üzrə yoldaşlıq görüşündə güclərini sınayıblar.

Dənizkənarı Mili Parkdakı Su İdman Sarayının meydançasında keçirilən oyunda Azərbaycan dənizçiləri Rusiya komandasına 8-2 hesabı ilə qalib gəlib.

Sonda komandalara hədiyyələr və kubok təqdim olunub.

# Azərbaycanın hərbçi güləşçiləri 32-ci dünya çempionatına qələbə ilə başlayıblar

*Sentyabrın 20-də Litvanın Klaypeda şəhərində hərbçilər arasında güləş üzrə 32-ci dünya çempionatının təntənəli açılış mərasimi olub.*

Açılış mərasimində Litvanın dövlət və hökumət rəsmiləri, Beynəlxalq Hərbi İdman Şurasının (CISM) təmsilçisi Abdul Rahim Bello, Litva Güləş Federasiyasının prezidenti Giedrius Dambrauskas və CISM-in Qafqaz, Qara dəniz və Balkan regionu üzrə əlaqələndiricisi, ehtiyatda olan polkovnik Nevzat Varol və iştirakçı ölkələrin nümayəndə heyətləri iştirak ediblər.

Çıxış edənlər yarışın əhəmiyyətindən danışıb, idmançılara uğurlar arzulayıblar.

Xatırladaq ki, Azərbaycanın Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun (MOİK) komandasının da qatıldığı hərbçilərin güləş üzrə 32-ci dünya çempionatında 22 ölkədən 320-yə yaxın idmançı iştirak edir. Yarış iştirakçılarının yarıdan çoxu Olimpiya, dünya və Avropa çempionatlarının mükafatçılarıdırlar.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, MOİK-in rəisi polkovnik-leytenant Rəşad Quliyev, sərbəst güləş üzrə komandamızın rəhbəri Nazim Əlicanov, yunan-Roma güləşi üzrə komandamızın rəhbəri isə Taleh İsrafilovdur. Azərbaycan nümayəndə heyətinin tərkibinə, həmçinin, beynəlxalq dərəcəli hakimlər Elman İsmayılov və Tural Əliyev də daxildir.

Yarışın birinci günündə Azərbaycanın altı idmançısı mübarizəyə qoşulub. Belə ki, sərbəst güləşçilərimiz Əfqan Xaşalov (57 kq), Qalib Əliyev (61 kq), Ağahüseyn Mustafayev (65 kq), Coşqun Əzimov (70 kq), qadın güləşçilərimizdən Türkan Nəsirova (48 kq), Tatyana Varantsova (53 kq) xalça üzərinə çıxıblar.

Yarışın ilk günü Azərbaycan idmançıları üçün uğurlu olub. Yığmamızın üzvləri bir qızıl, bir gümüş, üç bürünc medal qazanıblar. Qızıl medalı millimizin aktivinə Qalib Əliyev yazdırıb. Sərbəst güləşçimiz 61 kiloqram çəki dərəcəsində yarışın finalında amerikalı Rayn Menqlanı 8:4 hesabı ilə məğlub edərək dünya çempionu olub.



Yığmamızın üzvü Əfqan Xaşalov (57 kq) Rumıniya güləşçisi Dukuk Andreyi 8:1 hesabı ilə məğlub edərək bürünc medala layiq görülüb.

Ağahüseyn Mustafayev (65 kq) iranlı Mehran Nasirini 4:3 hesabı ilə məğlubiyyətə uğradaraq üçüncü pillədə qərarlaşıb. Coşqun Əzimov (70 kq) isə polşalı Mateus Pisariskini 11:5 hesabı ilə məğlub edərək bürünc medala layiq görülüb.

Güləşçimiz Türkan Nəsirova (48 kq) gümüş medala sahib olub.

İlk görüşdə məğlub olan Tatyana Varantsova mübarizəni dayandırıb.

* * *

Güləş üzrə 32-ci dünya çempionatının ikinci günündə Azərbaycan komandası bir bürünc medal qazanıb.

Yarışın ikinci günündə Azərbaycanın iki idmançısı mübarizəyə qoşulub. Sərbəst güləşçilərimizdən Rəşad Yusifli (74 kq) və Əşrəf Əliyev (86 kq) xalça üzərinə çıxıblar.

Əşrəf Əliyev Çin idmançısı Bahetihan Huvatibiekeni 5:1 hesabı ilə məğlub edərək bürünc medal qazanıb. Rəşad Yusifli isə ilk görüşdə mübarizəni dayandırıb.

Bununla da dünya çempionatının sərbəst güləş yarışları başa çatıb. Komanda hesabında medalların sayına görə Rusiya millisi birinci, İran yığması ikinci, Azərbaycan komandası isə üçüncü olub.

* * *

Güləş üzrə 32-ci dünya çempionatına qatılan nümayəndə heyətlərinin rəhbərləri və Beynəlxalq Hərbi İdman Şurasının (CISM) təmsilçiləri yarışa ev sahibliyi edən şəhərin meri Vitautas Qrubliauskas ilə görüşüblər.

Görüşdə çıxış edən mer dünyanın müxtəlif ölkələrindən olan hərbçilərin Klaypedada sülh, dostluq və idman üçün bir arada toplanmalarından məmnunluğunu ifadə edib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun (MOİK) rəisi, polkovnik-leytenant Rəşad Quliyev Vitautas Qrubliauskasa xatirə hədiyyəsi təqdim edib.



Mer Azərbaycanın bu mötəbər yarışa böyük heyətlə qatılmasının önəmini qeyd edib.

Rəşad Quliyev yüksək qonaqpərvərliyə və tədbirin uğurla təşkilinə görə Vitautas Qrubliauskasa təşəkkürünü bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

*Hərbi ənənələr, yeniliklər*

# "Arbalet" əl snayper qumbaraatanı



30 mm-lik əl TKB-0249 "Arbalet" snayper qumbaraatanı 1988-ci ilin sonunda V.N.Teleşin tərəfindən hazırlanıb. Çox sadə quruluşa malikdir, yığılan qundaqla, mexaniki və optik nişangahla, 5-10 atışlı maqazinlə təchiz olunub.

Silahın xüsusiyyətlərinə gəldikdə isə, 30 mm kalibrlidir, uzunluğu 900 mm, çəkisi 10 kiloqramdır. Qumbaraatanın ilkin sürəti saniyədə 185 metr, maksimal atəş uzaqlığı 1700 metr, nişangah uzaqlığı isə 1000 metrdir.

**Hazırladı: Svetlana YUSUBOVA, "Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə PKK-ya məxsus daha iki cəbbəxana aşkarlanıb



Türkiyə Silahlı Qüvvələrinin (TSQ) ölkənin Siirt vilayətinin Eruh rayonunda və Hakkari bölgəsinin Yüksekova ərazisində keçirdiyi antiterror əməliyyatları nəticəsində PKK-ya məxsus iki böyük cəbbəxana ələ keçirilib.

Cəbbəxanalarda xeyli miqdarda ağır silah, terrorçuların istifadə etdikləri geyim və ərzaq olub. Bundan başqa, sentyabrın 19-da Hərbi Hava Qüvvələri İraqın şimalında yerləşən PKK məxsus bir neçə terrorçu düşərgəsini məhv edib.

## Yaponiya "Patriot" PAC3 komplekslərini Hokkaydo adasında yerləşdirir



Yaponiya Koreya Xalq Demokratik Respublikası (KXDR) tərəfindən artan raket təhlükəsindən qorunmaq üçün "Patriot" PAC3 komplekslərini Hokkaydo adasında yerləşdirir.

Bu barədə məlumat verən müdafiə naziri İtsunori Onodera həmin komplekslərin Oşima yarımadasında yerləşdirildiyini bildirib.

KXDR-in bu yaxınlarda keçirdiyi sınaq zamanı ballistik raket Hokkaydo adası üzərindən uçaraq Sakit okeana düşüb. Raket sınağı ilə bağlı KXDR tərəfindən heç bir xəbərdarlıq edilməyib.

İ.Onodera deyib: "Getdikcə gərginləşən mövcud vəziyyətdə Müdafiə Nazirliyi yüksək hazırlıq tədbirləri görür və bunlardan biri də əvvəlcədən nəzərdə tutulmayan vəziyyətə hazır olmaqdır. Həmin məqsədlə bu gün Oşima yarımadasındakı quru qoşunlarının Hakodate hərbi bazasına PAC3 batareyaları göndərilib".

Nazirin çıxışının stenoqramı Yaponiya Müdafiə Nazirliyinin veb-saytında yerləşdirilib.

İ.Onodera vurğulayıb ki, Müdafiə Nazirliyi istənilən vəziyyətdə vətəndaşların təhlükəsizliyini təmin etmək üçün bütün gücünü sərf edəcək.

## Çində dünyanın filiz daşıyan ən böyük gəmisi istismara verilib



Çində dünyanın dəmir filizi daşıyan ən böyük gəmisi istismara verilib.

Ötən ilin oktyabrında inşasına başlanılan və ən son avadanlıqla təmin olunan gəminin uzunluğu 362 metr, eni 65 metrdir. Ümumi çəkisi 400 min ton olan gəmi bir əvvəlki nəsil gəmilərdən 30 faiz çox yük (200 min ton) daşıya biləcək.

Gəmini bu tip digər modellərdən fərqləndirən əsas xüsusiyyətlərdən biri də onun 18,8 faiz az yanacaq işlətməsidir. Bu da öz növbəsində filiz daşınmasının dəyərini 30 faiz azaltmağa imkan verir.

## Meksikada zəlzələ qurbanlarının sayı 40 nəfəri ötüb



Meksikanın Morelos ştatında baş verən zəlzələ nəticəsində ölənlərin sayı 40 nəfəri ötüb.

Meksikanın Qrako ştatının qubernatoru Ramires öz "Twitter" səhifəsində ən azı 42 nəfərin öldüyünü yazıb.

Güclü təkanlar Mexiko şəhərində də hiss olunub. Mülki müdafiə məsələləri naziri Fausto Luqo zəlzələdən sonra baş verən yanğınlar, binaların uçması haqqında məlumat verib. Bir çox küçələr bağlanıb, yollarda tıxaclar yaranıb. Benito Xuares adına Meksika Beynəlxalq Aeroportu öz işini dayandırıb.

**AZƏRTAC-ın materialları əsasında**



*Ovqat*

# Çiçək sevgisi

Bu il məktəblərimizdə ilk dərsin bir mövzusu olacaq: Aprel zəfəri. Siz aprel zəfərini qazananların davamçılarısınız, Azərbaycan əsgəri! Ərazi bütövlüyümüzün bərpa olunması, torpaqlarımızın işğaldan azad edilməsi amalıyla xidmət edirsiniz. Bəşəri duyğularla yaşaya-yaşaya milli ruhumuzu çox gözəl yaşadırsınız!

Siz Nərimanların, Bəhramların, Qurbanların, ... davamçılarısınız, Mübarizləşməyə, Muradlaşmağa, Samidləşməyə, ..., Çingizləşməyə qadirsiniz. Sülh danışıqları baş tutmasa, Mübarizləşəcəksiniz, Muradlaşacaqsınız, Samidləşəcəksiniz, ..., Çingizləşəcəksiniz...

Çiçək təbiətin gözəlliyidi. Siz bu gözəlliyi duyanların, bu gözəlliyin mahiyyətini dərk edənlərin güvəncisiniz.

Əsgər qardaşınız dağ çiçəyinin ətrini necə böyük sevgilərlə qoxuyur! Bu sevgi Vətənə sevgidi. Vətənsevərlər bu sevgini duymayanlara necə vətəndaş desin, necə? Vətəni qoruyan əsgərin çiçəyə sevgisini - çiçək sevgisini Vətən sevgimizə üzərlik bilməliyik - bilirik. Çürük kəmələrinə sığınanlar nə sizin bu sevginizi görə bilər, nə də bu sevgini görənləri. O gözəlim çiçəklərə bunca dəruni sevginin mahiyyətini siz nə gözəl dərk edirsiniz, Azərbaycan əsgəri!

Çiçək ehtiramın təzahürüdü; çiçəkləri sevirsiniz - xalqın ehtiramını sevirsiniz. Bu ehtiram Qələbədi. Siz Qələbənin əsgərisiniz. Yaxın vaxtlarda bu ehtiram məmləkətimizə gözaydınlığı olacaq. Bu ehtiram axar suları dayandırmağa, əsən yelləri çilikləməyə, vurnuxan buludları dağıtmağa qadirdi. Çiçəklərin ləçəyinə düşən şəhi, damla şəhə sığal çəkən incə mehi, gözlərini qırpmadan bu gözəlliyi gözlərinə köçürən qövsi-quzehi işğaldan azad edəcəyiniz torpaqlara da qaytaracaqsınız!

"Azərbaycan Ordusu" Azərbaycan Ordusunun bir zərrəsidi. Bu zərrənin də işığı sizin üçündü. Ürəyinin gözüylə baxanlar son illər bu zərrənin işığının gurlaşdığını görür. Qəlbitəmizlər bu işığın Vətən sevgisindən süzüldüyünü aydınlığıyla dərk edir. Bu işıq da sizin ürəyinizin təpərinə - Vətən sevginizə qarışır, Azərbaycan əsgəri! Bu işığı görməmək gecə korluğudu. Varlığım qədər inanıram ki, siz də bu fikirdəsiniz...

Tarix deyir ki, Cavanşirin döyüşçülərini də, Xətainin qızılbaşlarını da, Cavad xanın igidlərini də qələbələrdən sonra dönüşlərində xalq çiçəklərlə qarşılayarmış. Bu sevgi Cavanşirin döyüşçülərinə, Xətainin qızılbaşlarına, Cavad xanın igidlərinə gözlənilməz gözlənilən döyüşlər üçün etibar, inam, güvənc olarmış. Biz o çiçəkləri böyük sevgilərlə dərənlərin, dərin sevgilərlə əzizlərinə bağışlayanların sələfiyik, siz o çiçəkləri ehtiram nişanəsi kimi bağrına basanların. Gözlədiyimiz qələbə günü sizin sayınız qədər çiçək dəstəsi dəriləcək, Azərbaycan əsgəri!..

Çiçək sevgisi ruhunuz, ruhunuzu Vətənə sevgi bilənlərin narahat yuxularında gecələyən həsrətin son nəfəsidi. Tətik sıxan barmaqlarınız çiçək də dərəcək. Şəhidlər xiyabanına aparmaq üçün...

Çiçək sevginizi çiçəyimiz bilirik, Azərbaycan əsgəri! Bu sevginiz - bu sevgimiz yaxınlarda Cıdır düzünü bir boy da dikəldəcək. Sizə bağışlanan çiçəklər dünyanın heyrətinə dönəcək.

"Azərbaycan Ordusu" qəzetində dərc olunmuş "Çiçəklər bu il dəriləcək" məqaləsi yadındamı? Bu istəyi necə bağrına basmayasan? Bu istəyi gözlərinə nur bilməyən olarmı? Yaxın vaxtlarda xalq sizi sevdiyimiz, əzizlədiyimiz, sevdiyiniz, əzizlədiyiniz çiçəklərlə qarşılayacaq!

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# İdman

## "Judo Club 2012"nin üzvü Avropa çempionatında bir qızıl və bir gümüş medal qazanıb



Azərbaycanda cüdo idmanının inkişafına, idmanın bu növünün kütləviliyinin artırılmasına dəstək verən "Judo Club 2012" klubunun uğurları gündən-günə artır.

Sloveniyanın Maribor şəhərində gənc cüdoçular arasında keçirilən Avropa birinciliyində uğur qazanan idmançılar arasında "Judo Club 2012"nin yetirmələri də var. Klubun yetirməsi Murad Fətiyev 73 kiloqram çəki dərəcəsində gümüş medal qazanıb. O, finalda Azərbaycanın digər təmsilçisi Hidayət Heydərov ilə qarşılaşıb.

Heyətində Murad Fətiyevin də çıxış etdiyi Azərbaycan millisi çempionatda komanda yarışında da birinci yeri tutub. Beləliklə, "Judo Club 2012"nin yetirməsi Vətənə 1 qızıl və 1 gümüş medalla qayıdıb.

## Yeniyetmə ağır atletlərimiz Avropa birinciliyində iştirak edəcəklər

Sentyabrın 22-30-dək Kosovonun paytaxtı Priştina şəhərində 15 və 17 yaşlı yeniyetmə ağır atletlər arasında Avropa birinciliyi keçiriləcək.

Yarışda 40-a yaxın ölkədən 305 atlet (175 oğlan və 130 qız) medallar uğrunda mübarizə aparacaq.

Azərbaycan yığmaı komandası çempionatda 9 idmançı (8 oğlan, 1 qız) ilə təmsil olunacaq. Qızların yarışında (U-17) ölkəmizi Səbinə Əzimova (53 kq) təmsil edəcək. On beş yaşadək oğlanların yarışında Elşən Məmmədov (50 kq), Murad Əliyev və Rüstəm Qasımov (56 kq), Nurlan Rəsulov (62 kq), Əli Şükürlü (69 kq), Tarmenxan Babayev (85 kq), Rəhman Kazımov (+94 kq) körpücük üzərinə çıxacaqlar. U-17 kateqoriyası üzrə oğlanların mübarizəsində Elməddin Hüseynov (56 kq) gücünü sınayacaq.

## Karateçilərimiz VIII "Basel Open Masters" turnirində 18 medal qazanıblar



Karate üzrə Azərbaycan milli komandasının üzvləri İsveçrədə keçirilən VIII "Basel Open Masters" turnirində 18 medal qazanıblar. Medallardan 9-u qızıl, 5-i gümüş, 4-ü isə bürüncdür.

Üç kateqoriya üzrə keçirilən turnirdə fərdi mübarizədə Rəfael Ağayev (-75 kq), Şahin Atamov (+84 kq) və Roman Heydərov (kata), İlahə Qasımova (-55 kq) və İrina Zaretska (-68 kq) çempion olublar. Firdovsi Fərzəliyev (-60 kq), Nuranə Əliyeva (-50 kq) və Fəridə Əliyeva (+68 kq) ikinci, Novruz Əliyev (-75 kq) və Ayxan Mamayev (-84 kq) isə üçüncü pillədə qərarlaşıblar.

Açıq turnirdə isə Asiman Qurbanlı (+84 kq) və Fəridə Əliyeva birinci, Ayxan Mamayev ikinci yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

# Müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin nəzərinə

***Vətəndaşlardan daxil olan çoxsaylı müraciətləri nəzərə alaraq, Silahlı Qüvvələrdə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul ilə bağlı müəyyən olunmuş qaydaları təqdim edirik:***

Müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunda olan hərbi vəzifəlilər Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə (SQ TTM) müraciət edə bilərlər.

Silahlı Qüvvələrin ehtiyacları nəzərə alınmaqla hərbi vəzifəlilər yalnız müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kurslarına qəbul edilirlər.

Müddətdən artıq həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunu bildirmiş şəxs (şəxslər) SQ TTM-in komandanlığına ərizə ilə müraciət etməlidir. Namizəd tərtib edilmiş sənədlərlə (şəxsi işi ilə) birlikdə yaradılmış peşə-psixoloji seçim komissiyasına təqdim olunur. Namizədin fiziki hazırlığı, ümumi bilik səviyyəsi, məntiqi mühakimə, qərar qəbuletmə, düşünmə qabiliyyəti, peşə maraqları, ixtisas hazırlığı, ünsiyyət qurmaq bacarığı, fərdi-psixoloji və digər keyfiyyətləri öyrənilir. Komissiya tərəfindən peşəkar yararlılığı müsbət qiymətləndirilən namizədin adı namizədlər siyahısına daxil edilir və növbəti qəbul zamanı o, kursa göndərilir.

Kursa təqdim olunan namizəd Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasında tibbi müayinədən keçərək onun xidmətə yararlılıq dərəcəsi müəyyən edilir. Yararlı hesab edilən namizədlər SQ TTM-də təşkil olunan qəbul imtahanlarında iştirak edir. İmtahanları müvəffəqiyyətlə vermiş namizədlər müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursuna qəbul edilirlər. Kursu müvəffəqiyyətlə başa vuran namizədlər müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilirlər və ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunurlar.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul şərtləri:

- SQ TTM-də təşkil olunan "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na müddətli həqiqi hərbi xidmətini başa vurmuş, ən azı ümumi orta təhsilli, 28 yaşınadək vətəndaşlar qəbul olunurlar;

- "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na namizədlərlə onların kursu bitirdikdən sonra 3 il müddətinə könüllü qaydada əsgərlərin, matrosların və çavuşların müddətdən artıq həqiqi hərbi xidmətinə qəbul olunmaları barədə bağlaşma imzalanır.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na qəbul olunmaq istəyən namizədlər 20 sentyabr 2017-ci il tarixdən 3 oktyabr 2017-ci il tarixədək ərizə ilə SQ TTM-də fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 2 nüsxədə;
- nigah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 2 nüsxədə;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surətləri (uşaq olduqda) - 2 nüsxədə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 2 nüsxədə;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm. və 2 ədəd 9x12 sm. ölçüdə);
- məhkumluğun olub olmaması barədə qeydiyyatda olduğu polis idarəsi (şöbəsi) tərəfindən verilmiş arayış;
- hərbi biletin notarial qaydada təsdiq edilmiş surəti - 2 ədəd;
- sağlamlıq haqqında yalnız Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasından verilmiş arayış (forma 7).

**Qeyd:** Məhkumluğu olan, əvvəllər əsgər, matros və çavuş vəzifələrində bağlaşma əsasında könüllü hərbi xidmətdə olarkən hərbi qulluqçuların şərəfini ləkələyən, nalayiq hərəkətlər törətdiyinə görə həqiqi hərbi xidmətdən ehtiyata buraxılan hərbi qulluqçuların təkrarən müddətdən artıq həqiqi hərbi xidmətə qəbul üçün müraciət etməmələri xahiş olunur.

Qəbul olunmaq üçün müraciət etmiş namizədlər test üsulu ilə ümumi fənlərdən və fiziki hazırlıqdan keçirilən imtahanlara cəlb edilirlər.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi. (Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi, telefon: **(012) 538-85-62).**

**Müraciət etmə vaxtı:** Sentyabrın 20-dən oktyabrın 3-dək hər gün (bazar günü istisna olmaqla) saat 09.00-dan 18.00-dək.

Gizir İsmayılov Orxan Saleh oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şirinov Azad Mübariz oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İslamov Fərhad Rasət oğluna verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Səttarlı Pərvin Eldəniz oğluna verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Aydınlı Şirxan Əhliyyət oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № **361**
Sifariş № **374**
Nüsxə **4600**